Azərbaycan Respublikasının
Kənd Təsərrüfatı Nazirliyi

Aqrar Xidmətlər
Agentliyi

# Aqrar Təlim Mərkəzi




www.axa.gov.az

# Qarğıdalı bitkisinin becərilməsi üzrə təqvim planı

## Yanvar - Fevral



-Səpin və becərmədə istifadə olunan texnika və avadanlıqlar sazlanır, işlək vəziyyətə gətirilir
-Səpin materialı hazırlanır
-Toxumların keyfiyyəti və cücərmə qabiliyyəti laboratoriyada yoxlanılır

## Mart



-Səpinqabağı kultivasiya işləri aparılır və alaq otları məhv edilir
-Torpaq analizinin nəticələrinə əsasən gübrə normaları torpağa verilir
-Sahə hamarlanır və səpin üçün hazırlanır

## Aprel



- Hektara dən üçün 18-20 kq, silos üçün 22-25 kq hesabı ilə səpin aparılır
- Toxum torpağın 5-6 sm dərinliyinə basdırılır
- Azotlu gübrələrin 30%-i səpinlə birlikdə verilir
- Alaq otlarına qarşı torpaq herbisidləri səpinqabağı və ya səpindən sonra toxumlar cücərməmişdən qabaq tətbiq edilir
- Aran zonasında qarğıdalı səpini başa çatdırılır

## May



-Birinci ongünlükdə dağətəyi və orta dağlıq zonalarda səpin başa çatdırılır
-Azotlu gübrələrinin 30%-i torpağa verilir
-Cərgəarası kultivasiya və dibdoldurma işləri görülür
-Sahələrdə suvarma şırımları açılır və suvarılma aparılır
-Alaq otları mexaniki yolla və ya herbisidlərlə məhv edilir
-Zərərvericilərə qarşı müşahidə və mübarizə aparılır

## İyun



-Suvarma aparılır
-Azot gübrəsinin 40%-i növbəti kultivasiya ilə verilir
-Alaq otları və zərərvericilərlə sirayətlənməyə uyğun mübarizə aparılır
-Anbarlar təmizlənir və dezinfeksiya edilir

## İyul



-Suvarma və kultivasiya aparılır
-Tozlanma prosesi daxil olmaqla bitkinin inkişafı nəzarətdə saxlanılır
-Zərərvericilərlə sirayətlənməyə uyğun mübarizə aparılır
-Yığım üçün texnika hazırlanır

## Avqust



-Dənin süd-mum yetişkənliyi dövründə suvarma dayandırılır
-Bitkilərin inkişafı nəzarətdə saxlanılır
-Dənin dolma vəziyyəti yoxlanılır

## Sentyabr



-Dənin nəmliyi 20-24% arası olduqda məhsul yığımına başlanılır
-Dən məhsulu qurudulur və tədarük olunur
-Saxlanılan dən məhsulunun nəmliyi 15%-in altında olmalıdır

## Oktyabr



-Növbəti əkin ili üçün hazırlıqlara başlanılır
-Torpağın aqrokimyəvi analizi aparılır

## Noyabr - Dekabr



-Sahələr bitki qalıqlarından təmizlənir
-Üzvi gübrələrin illik normasının hamısı sahəyə verilir
-27-30 sm dərinlikdə dondurma şumu aparılaraq arat edilir
-Növbəti vegetasiya ili üçün tədbirlər planı hazırlanır

## Görüləcək işlərin qısa siyahısı

| Yanvar | Fevral | Mart | Aprel | May | İyun | İyul | Avqust | Sentyabr | Oktyabr | Noyabr | Dekabr |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Sahələr əkinə hazırlanır, gübrələmə aparılır. | | | | | | | | |
| | | Fosfor və kalium gübrəsi verilir. | | | | | | | | | |
| | | | | Əkin aparılır. | | | | | | | |
| | | | | Azot gübrələrinin 30%-i torpağa verilir. | | | | | | | |
| | | | Şumaltı gübrələr verilir. | | | | | | | | |
| | | | Toxum göbələklərə qarşı dərmanlanır. | | | | | | | | |
| | | | | Alaq otlarına qarşı mübarizə aparılır. | | | | | | | |
| | | | | | Suvarılır. | | | | | | |
| | | | | | Seyrəltmə, dibdoldurma və kultivasiya aparılır. | | | | | | |
| | | | | | | Suvarma aparılır, anbarlar dezinfeksiya edilir. | | | | | |
| | | | | | | Təkrar qarğıdalı əkinləri aparılır. | | | | | |
| | Azot gübrəsinin qalan hissəsi torpağa verilir. | | | | | Suvarma aparılır. | | | | | |
| | | | Suvarma və kultivasiya aparılır. | | | | Tozlanma izlənilir. | | | | |
| | | | | Dənin dolma vəziyyəti yoxlanılır. | | | | Suvarma dayandılır. | | | |
| | | | | | | | | Yığıma hazırlıq başlayır. | | | |
| | | | | | | Məhsul yığımı başlayır. | | | | | |
| | | | | | | Növbəti il üçün hazırlıqlara başlanılır. | | | | | |
| | | | | | | | Torpaqlar analiz olunur. | | | | |
| | | | | | | | Sahələrə peyin verilir. | | | | |
| | | | | | 27-30 sm dərinlikdə dondurma şumu aparılır | | | | | | |



# Qarğıdalı bitkisinin mühafizə sxemi

| Zərərli orqanizmlər | İstifadə olunan pestisidlər |
|---|---|
| Məftil qurdu | İmidacloprid (400 q/l)+Clothianid (100 q/l) 600ml/100 kq toxum |
| Qovuqlu sürmə, kök və gövdə çürüməsi, fuzarioz, bakterioz, toxumun kiflənməsi. | Thiram (400 q/l)+difenoconazole (30 q/l) 3,0 kq/ton toxum |
| İkiləpəli alaqların bütün növü və birləpəli alaq otlarına. | Glyphosate 500 q/l. 3,0-4,0 l/ha Əkindən qabaq torpağa səpilir. |
| Birillik ikiləpəli və birləpəli otlar. | Metribuzin 600 q/l<br>0,8-1,0 l/ha. Cücərtilər əmələ gəlməmiş torpağa səpilir. |
| Birləpəli və ikiləpəli alaqlar. | Nikosulfuron 40 q/l+mezotrion 70 q/l (1,0-2,0 l/ha) və ya<br>Dicamba 120 q/l+2,4-D (dimetil amin duzu), 344 q/l (1,0-1,5 l/ha)<br>İşçi məhlul 200-300 l/ha Qarğıdalı bitkisi 3-5 yarpaq olanda. |
| Birillik və çoxillik birləpəli və ikiləpəli alaqlar. | Dicamba 480 q/l, (0,4-0,5 l/ha) və ya<br>Mezotrion 150q/l+nikosulfuron 60q/l+tifensulfuron-metil 11,25q/l (0,5-1,0 l/ha). |
| Kök və gövdə çürüməsi, qıçaların fuzariozu və digər xəstəliklər. | Benomyl (fundazol) 500 q/kq (0,6-0,8 kq/ha). |
| Qarğıdalı və çəmən kəpənəyi, payız sovkası. | Cypermethrin 250 q/l (0,32-0,35l/ha) və ya İndoxacarb 150q/l (025-0,30 l/ha). |

**Qeyd:** Pestisidlərin məsarif normalarına ciddi riayət olunmalı və lazım olduqda DAİM-də yerləşən Bitki Mühafizəsi və Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzinin mütəxəssisləri ilə məsləhətləşmək tövsiyə edilir.

